## Atatürk Olimpiya Stadionu

Mədəniyyətlər beşiyi sayılan İstanbulun İkitelli bölgəsində 584 hektarlıq sahədə yerləşən Olimpiya Parkının ən böyük layihəsi olan Atatürk Olimpiya Stadionunun inşasına 1999-cu ildə başlanmışdı. Tikintisi Azərbaycanda «Əsrin müqaviləsi»nin inşaat işlərində yaxından iştirak edən «Tekfen» şirkəti tərəfindən 2002-ci ildə tamamlanan və həmin ilin yayında İstanbulun «Qalatasaray» və Yunanıstanın «Olympiakos» komandaları ararsında dostluq görüşü ilə rəsmən açılan stadion 75.145 tamaşaçı tutur. Olimpiadalara hazırlıq layihəsi çərçivəsində Türkiyədə atletizm və futbola xidmət etmək məqsədilə inşa edilmiş İstanbul Atatürk Olimpiya Stadionu haqqında İtaliyada «Cribaudo» nəşriyyatı tərəfindən 2004-cü ildə nəşr olunmuş «Stadi Del Mondo» (Dünya stadionları) adlı kitabda dünyanın ən böyük və ən önəmli stadionlarından biri kimi bəhs edilmiş, bu unikal idman qurğusu UEFA-nın beşulduzlu stadionları siyahısına salınmış, Beynəlxalq Atletizm Federasiyaları Birliyi və Beynəlxalq Olimpiya Komitəsi tərəfindən birinci dərəcəli atletizm sahəsi kimi qəbul edilmişdir.

Stadionun içərisində əlil tamaşaçılar üçün 400 nəfərlik ayrıca bölmə fəaliyyət göstərir, burada KİV mənsubları üçün 2 min kreslo ayrılıb. 134 giriş, 148 çıxış qapısı olan stadionun 12 dəqiqə ərzində tam boşaldılması mümkündür. Stadionun ətrafında inşa edilmiş açıq və qapalı avtomobil parkında ümumilikdə 19 minə yaxın nəqliyyat vasitəsi yerləşir.

Stadionun fərqli cəhətlərindən biri qərb tərəfində aypara şəklində polad üst örtüyünün yerləşdirilməsidir. Yerdə yığılaraq montaj olunmuş və kranlar vasitəsilə iki dayaq üzərində quraşdırılmış polad konstruksiyanın ağırlığı 3.420 ton, sahəsi isə 18.600 m2-dir. Stadionun 1.200 ton ağırlığında şərq örtüyünün sahəsi 13.000 m2-dir. Stadionun yeddi mərtəbədən ibarət olan 48.860 m2-lik daxili hissəsində idmançılara, hakim və məşqçilərə aid, idman sahəsi ilə birbaşa əlaqələri olan sahələr, texniki və təchizat obyektləri, yanğınsöndürmə və səhiyyə mərkəzi, təşkilatçılara aid ofislər və iclas zalları, KİV üçün tribunalara birbaşa çıxışı olan sahələr yerləşir.